# BİBLİOQRAFİYAŞÜNASLIQ BÖLMƏSİ

## PANDEMİYA ŞƏRAİTİNDƏ KİTABXANALARIN İNFORMASİYA FƏALİYYƏTİ VƏ SOSİAL MEDİA

**Nadir İsmayılov**

*BDU, Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Müstəqil dövlətimizin intellektual və mənəvi potensialının formalaşması və inkişafı kimi əvəzedilməz funksiyaların yerinə yetirilməsində kitabxanalar mühüm rol oynayır. Ümummilli lider Heydər Əliyevin "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs yer, mənəviyyat, bilik, zəka mənbəyidir" sözləri qlobal informasiya mühitində, sosial media arenasında Azərbaycan kitabxanalarının mühüm elm, bilik, mənəviyyat xəzinəsi olduğunu göstərir. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev də dünya xalqlarının həmrəylik və əməkdaşlığında informativ missiyası inkaredilməz olan "Azərbaycan kitabxanalarının Azərbaycan xalqının milli sərvəti" dəyərini xüsusi qeyd edir.

Sosial media texnologiyalarının kitabxana informasiya mühitində tətbiqi məsələləri son dövrlərdə, xüsusilə COVİD-19 pandemiyası ilə əlaqədar olaraq online xidmət proseslərinin və kitabxanadaxili iş mexanizminin işıqlandırılmasında, kitabxanaların fəaliyyətinin ictimaiyyətə çatdırılmasında vacib struktur elementlərindən birinə çevrilməkdədir. Bunun əsas səbəblərindən biri veb mühitinin, medianın və s. kimi informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişaf tempidir.

Sosial media güclü məlumat yayma vasitəsi olaraq kitabxanalara fəaliyyətlərini, mənbələrini və xidmətlərini tanıtmaq üçün bir yol təklif edərkən maraqlı tərəflərlə dialoq imkanı yaradır. Sosial media da rəqəmsal vətəndaş kimdir. Rəqəmsal vətəndaş, informasiya və kommunikasiya mənbələrindən istifadə edərkən tənqid edə bilən, onlayn davranışın etik nəticələrini bilən, əxlaqi onlayn qərarlar qəbul edə bilən, texnologiyadan sui-istifadə etməyən və rəqəmsal dünyada ünsiyyət qurarkən və əməkdaşlıq edərkən düzgün davranışı təşviq edən bir vətəndaşdır. Kitabxananın bağlı olduğu korporativ istifadəçilər kimlərdir. Bildiyimiz kimi, hər bir xalqın, dövlətin mədəni səviyyəsinin göstəricisi olan kitabxanalar ən böyük informasiya mənbəyi olub insanların bu qiymətli xəzinəsinin qorunmasını, nəsildən-nəslə ötürülməsini həyata keçirirlər. Xalqımızın əsrlər

boyu yaratmış olduğu qədim və bənzərsiz mədəniyyətin tərkib hissəsi kimi kitabxanalar dünya mədəniyyətini misilsiz incilərlə zənginləşdirən mənəvi sərvətimizin qorunub saxlanılmasına xidmət edirlər. Müasir texnologiyalar əsasında yeni resursların axtarılması, əldə edilməsi, təhlili və sistemləşdirilməsi, sənədlər haqqında biblioqrafik informasiya çatdıran biblioqrafik vəsaitlərin hazırlanması və ölkə daxilində tanıdılması bilvasitə sosial media əsasında həyata keçirilir. Bu gün kitabxananın biblioqrafik fəaliyyətində vəsaitlərin hazırlanmasında materialların təqdim edilməsinin innovativ formalarının yaradılmasına xüsusi diqqət yetirilir.

Biblioqrafik xidmətdə sosial medianın istifadəsinin üstünlükləri aşağıdakılardır:

- ✓ kitabxanadaxili xidmətlərin yüksək səviyyədə həyata keçirilməsi;
- ✓ vaxta qənaət;
- ✓ Kitabxanadan istifadəçi xidmətlərini yaxşılaşdırmaq üçün yeni təkliflərin verilməsi;
- ✓ zamandan asılı olmayan xidmətin həyata keçirilməsi;
- ✓ Daha çox təlim və təbliğ imkanlarının aparılması;
- ✓ Daha çox məzmun və forma cəhətdən xidmətin keyfiyyətinin yüksəldilməsi;
- ✓ Kitabxana işçiləri üçün yeni bilik, təhsil, karyera fürsəti əldə etmək şansını artırmaq.

Dünyada 1 milyarda yaxın istifadəçisi olan Facebook dünyanın ən çox istifadə edilən sosial media veb saytlarından biridir. Bununla aşağıdakı cədvəldən də tanış olmaq olar.

**Cədvəl 1**

*Ölkələr üzrə aktiv istifadəçilərin əhatə dairəsi %. Adambaşına düşən vaxt*

| | | |
|---|---|---|
| İtalya | 66% | 07:00:21 |
| Avstraliya | 63% | 07:45:28 |
| Amerika Birləşmiş Ştatları | 72% | 06:43:22 |
| İspaniya | 57% | 04:04:53 |
| Fransa | 57% | 04:33:05 |
| İsveçrə | 45% | 04:18:47 |
| Azərbaycan | 63% | 04:17:45 |
| Almaniya | 67% | 03:42:50 |
| Braziliya | 36% | 01:46:50 |
| Yaponiya | 54% | 00:31:38 |



Azərbaycan Respublikasında kitabxana-informasiya fəaliyyətinin inkişaf meyilləri
Respublika elmi konfransı

Nəticə olaraq qeyd edə bilərik ki, sosial media texnologiyalarının kitabxana informasiya mühitində tətbiqi məsələləri son dövrlərdə vacib struktur elementlərindən birinə çevrilməkdədir. Bunun əsas səbəblərindən biri veb mühitin, medianın və s. kimi informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişaf tempidir.